**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ**

**İLHAM ƏLİYEVƏ CƏNABLARINA**

**Surəti: Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri**

**Cənab İnam Kərimova**

**Surəti: Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri**

**Cənab Anar Bağırova**

**HÖRMƏTLİ CƏNAB PREZİDENT,**

Bildirirəm ki, 44 günlük vətən müharibəsi vetiranı anası, zəhmətkeş ana, tək başına övlad böyütmüş ana, kimsəsiz və sahibsiz ana olmuşam. Hər bir çətinliklərə sinə gəlmiş anayam. Mənim başıma bir cox hadisələr gəlmişdir. Mənə bu hadisələrdə bir çox haqsızlıqlar olmasına baxmayaraq, Azərbaycan Respublikasında vətəninə və dövlətinə layiqincə xidmət edən vətən oğulları da olmuşdur ki, həmin vəzifəli vətən oğulları mənim kimi veteran, çarəsiz, zəhmətkeş anaya qanunla əllərindən gələn köməyi etməyi əsirgəməmişdirlər. Mənim Sumqayıt Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının hakimi Zaur Məmmədov tərəfindən işimə düzgün baxılmamış, mənə qarşı qanunsuzluqlar etdiyi halda mən maddi imkansızlıq səbəbindən, yəni vəkil tutmaqa imkanım olmadığı üçün kassasiya şikayəti vermək hüququndan məhrum qalmışdım.

Mən Xaçmaz Rayon Məhkəməsinin sədrinin qəbulunda məhkəmənin baş məsləhətçi Sərvanla birlikdə oldum. Məhkəmənin sədri Xıdır Quliyevə dərdimi danışıb ondan köməklik istədim. Xıdır müəllimin göstərişilə baş məsləhətçi Sərvan müəllim mənim üçün Sumqayıt Apellyasiya məhkəməsinə dövlət hesabına vəkillə təmin edilməm barədə məktub hazırladı. Bundan sonra mən başqa bir ərizə ilə Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayevin qəbulunda oldum. Tofiq müəllim məni qiryətli vətən oğlu kimi qəbul edib şikayətimlə dərindən maraqlandı və hakimlərin etdiyi qanunsuzluqlarla tanış oldu. Mənə kömək edəcəyini və məhkəmə prosesinin videoyazısına da baxacağını bildirdi. Mən Tofiq müəllimə veteran anası kimi təşəkkür edib oradan ayrıldım. Bir müddət sonra mənim dövlət hesabına vəkillə təmin olunmam barədə qərar qəbul edilərək mənə göndərildi. Bundan sonra mənim kassasiya şikayətim Xaçmaz rayon vəkil bürosunun vəkili tərəfindən tərtib edilib göndərildi.

Sumqayıt Apellyasiya məhkəməsinin İnzibati kollegiyasının hakimləri Zaur Məmmədov, Gülnar Cabbarova, Toğrul Axundov qanunsuzluqları barədə qanuna uyğun tədbir görməyinizi xahiş edirəm.

Kimsəsin veteran anasına etdikləri köməkliklər görə Sumqayıt Apellyasiya məhkəməsinin sədri Tofiq Paşayevə, Xaçmaz Rayon Məhkəməsinin sədri Xıdır Quliyevə, məhkəmənin baş məsləhətçisi Sərvan müəllimə və Xaçmaz rayon vəkil bürosunun vəkili Pərviz Müslümova təşəkkürümü bildirirəm. Adlarını göstərdiyim şəxslərə təşəkkür məktubu göndərilməsini xahiş edirəm.

Sizə şəhid anaları, qazi anaları və veteran anaları adından ən böyük təşəkkürümü bildirirəm.

İmza: veteran anası Teymurova Həqiqət Mirzağa qızı

08 aprel 2025-ci il

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 1314
« 11 » 04 2025 il